# AZƏRBAYCAN RESPUBLİKASI

## AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİ

AZ 0000, Bakı şəhəri, Xaqani küçəsi 53, Telefon: (+99412) 493-29-41, Faks: (+99412) 493-52-25


№ 1K-13/291 «28» sentyabr 2017-ci il

*SİNAM MMC-nin direktoru Əbülfət Rəhmanova*

*Azərbaycan Yazıçılar Birliyində FARABI(BTMMN )*

*layihəsi üzrə SERP(Müəssisə Resurslarının İdarə olunması)*

*proqram təminatının tətbiqinə dair*

RƏY MƏKTUBU

SERP proqram təminatı Azərbaycan Yazıçılar Birliyində 20 noyabr 2014-cü ildən tətbiq edilir.Bu vaxtdan etibarən SİNAM-ın işçilərinin dəstəyi ilə həm kadrların uçotu, həm də mühasibatlıq tam olaraq SERP-də aparılır.

Təşkilatımızda işçilərin əmək haqqları hesablanması çox asanlaşıb və vaxta qənaət edilir.Pensiya fonduna verilən B1 və B3 hesabatları sistemdən avtomatik alınaraq göndərilir.

Anbar, istismarda olan əsas vəsaitlər və azqiymətlilərin uçotu sistemdə elə qurulmuşdur ki, bu da mühasiblərə işi dəqiq və səhvsiz yerinə yetirməyə imkan verir.

Xəzinə və bank əməliyyatları sistemdə öz əksini çox yaxşı tapmışdır. Dövlət Xəzinədarlıq Agentliyinin portalına göndərilən sənədlər sistemdən avtomatik alınır.

Sistemdə analitik uçot qurulmuş, bu da mühasibin istənilən vaxt apardığı əməliyyatları yoxlaması üçün vacibdir.

Büdcə təşkilatlarının Maliyyə Nazirliyinə ilin sonunda təqdim etdiyi maliyyə hesabatları il ərzində aparılan əməliyyatların nəticəsində avtomatik yaranır və bu da hesabatların vaxtında təqdim olunmasına şərait yaradır və vaxta qənaət olunur.

***Hörmətlə,***

***Azərbaycan Yazıçılar***

***Birliyinin katibi:*** ***Çingiz Abdullayev***